# Gəncə Dövlət Dram Teatrının və İdman Sarayının inşası davam edir





Yaxın vaxtlarda Gəncədə daha iki nəhəng obyekt - Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrı və İdman Sarayı şəhər sakinlərinin ixtiyarına veriləcək.

Şəhərin M.A.Abbaszadə ilə “Azərbaycan bayrağı” küçələrinin kəsişməsində inşa edilən teatr binasının bütün inzibati otaqlarında rəngsaz və santexnik işləri yekunlaşıb. Tamaşaçı salonunda aparılan dekorasiya və işıq sistemi ilə bağlı işlər də tam başa çatdırılıb. Hazırda böyük səhnənin döşəməsi və texniki avadanlıqları quraşdırılır. Buna paralel olaraq kiçik səhnədə də işlər davam etdirilir.

Gəncə İdman Sarayında isə binanın fasadı, dam və digər müxtəlif yerlərində dəmir-beton işləri yekunlaşıb, böyük idman zalı və tribunalarda metal konstruksiyalar quraşdırılıb. Bununla yanaşı, binanın zirzəmisində, birinci və ikinci mərtəbələrində hörgü-suvaq, foyesində üzləmə-bəzək, fasadında isə şüşə-vitraj işləri görülüb. Növbəti mərhələdə binanın daxili memarlıq planına uyğun otaqların tikilməsi, digər hissələrdə döşəmə və tavanın vurulması, fasadında böyük ölçülü LED ekranın quraşdırılması və əlavə cari işlər həyata keçiriləcək.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2021.- 6 oktyabr.- S.11.